**“Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) 2-ci maddəsinə “Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı;” hissəsindən sonra aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

“Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)” Azərbaycan Respublikasının yubiley medalı;”.

**Maddə 2.** “Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

**Maddə 3.** “Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)” Azərbaycan Respublikasının yubiley medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 fevral 2025-ci il
№ 132-VIIQD

Azərbaycan Respublikasının
2025-ci il 3 fevral tarixli 132-VIIQD nömrəli
Qanunu ilə təsdiq edilmişdir

# “Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)” Azərbaycan Respublikasının yubiley medalı haqqında

## Ə S A S N A M Ə

### Maddə 1. Təltif edilən şəxslər

“Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)” Azərbaycan Respublikasının yubiley medalı ilə media sahəsinin inkişafında xüsusi xidmətləri olan, bu sahədə səmərəli fəaliyyət göstərən və ya media ilə əməkdaşlıqda fərqlənən Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təltif edilirlər.

### Maddə 2. Təltif edən orqan

“Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)” Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təltif edilirlər.

### Maddə 3. Taxılma qaydası

“Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)” Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan sonra taxılır.

Azərbaycan Respublikasının
2025-ci il 3 fevral tarixli 132-VIIQD nömrəli
Qanunu ilə təsdiq edilmişdir

## "Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

"Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra – medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 36 mm olan dairəvi lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfi xarici və daxili çevrələrlə konturlanmışdır. Xarici çevrə dekorativ elementlidir.

2.2. Xarici və daxili çevrələrin arasında yuxarı qövs boyunca "AZƏRBAYCAN MİLLİ MƏTBUATI" sözləri, aşağı qövs boyunca "1875–2025" rəqəmləri yazılmışdır. Yazılarla rəqəmlərin arasında sol və sağ tərəflərdə qövs boyunca yuxarıya doğru uzanan sünbül çələngləri təsvir olunmuşdur.

2.3. Daxili çevrənin içərisində "150 İL" sözləri və bükülmüş vərəq və ləlɘkdən ibarət kompozisiya yerləşdirilmişdir.

2.4. Bütün yazılar, rəqəmlər və elementlər relyefli olaraq, qabarıqdır, qızılı rəngdədir.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfi çevrə ilə konturlanmışdır. Çevrənin içərisində "AZƏRBAYCAN MİLLİ MƏTBUATININ 150 İLLİYİ" sözləri həkk olunmuşdur. Yazılardan aşağı hissədə "1875–2025" rəqəmləri yazılmışdır. Rəqəmlərdən sol, sağ və aşağı tərəflərdə üç düz xətt təsvir olunmuşdur.

3.2. Medalın arxa tərəfinin aşağı hissəsində medalın seriyası və nömrəsi göstərilir.

3.3. Bütün yazılar, rəqəmlər və xətlər relyefli olaraq, qabarıqdır, qızılı rəngdədir.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, 50 mm x 37 mm ölçülü xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir. Xara lentin yuxarı hissəsinə üzərində relyefli aypara və səkkizguşəli ulduzdan, aypara və ulduzun sol və sağ tərəflərində bükülmüş lentlərdən ibarət kompozisiya həkk olunmuş 40 mm x 5,5 mm ölçülü metal lövhə bərkidilmişdir.

4.2. Xara lentin mərkəzində eni 11 mm olan qızılı rəngli şaquli zolaq təsvir edilmişdir. Mərkəzdən sol və sağ kənarlara doğru, ardıcıl olaraq 6,5 mm enində boz rəngli, 2 mm

enində qızılı rəngli, 2,5 mm enində açıq göy rəngli və 2 mm enində qızılı rəngli şaquli zolaqlar təsvir edilmişdir.

4.3. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə edilir.

**“Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)” Azərbaycan Respublikasının yubiley medalı**







